Həqiqətən mömin gözəl əxlaqla, oruc tutan və gecələri namaz qılan kəsin dərəcəsinə çatır

Aişədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə demişdir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Həqiqətən mömin gözəl əxlaqla, oruc tutan və gecələri namaz qılan kəsin dərəcəsinə çatır".
[Şahidlərlə səhih olan] [Əbu Davud, Əhməd rəvayət ediblər]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, gözəl əxlaq insanı gündüzlər oruc tutan, gecələr namaz qılanın dərəcəsinə çatdırır. Gözəl əxlaq- yaxşılıq etməyi, xeyir söyləməyi, gülərüzlü olmağı, insanlara əziyyət verməməyi və onlardan gələ biləcək əziyyətə dözümlü olmağı özündə ehtiva edir.

http://www.sunnah.global/hadeeth/az/show/5799